

# MÜƏLLİM ÖMRÜ - ŞAİR ÖMRÜ

*VAQİF YUSİFLİ*

*filologiya elmləri doktoru*

**Murad Heydər oğlu Zərdabın Alıcanlı kəndində dünyaya göz açıb. Uşaqlığı Böyük Vətən müharibəsi illərinə düşüb, aclığın, məhrumiyyətin nə olduğunu görüb, anaların, gəlinlərin göz yaşlarını seyr edib, amma dözümü də, gələcəyə inamı da elə o illərdə ona nikbinlik bəxş edib. O, kənd mühitində formalaşıb, kolxozda işləyib, dülgərlik sənətinə yiyələnib, bir müddət kənddə klub müdiri vəzifəsində çalışıb. Bir qədər gec olsa da, ali təhsil alıb, Gəncədə Pedoqoji İnstitutun dil-ədəbiyyat fakültəsini bitirib. İyirmi iki yaşından Mingəçevirdə yaşayır. Müəllim işləyib və bu sənəti o qədər sevib ki, pensiya vaxtı gələndə gözləri yaşarıb.**

Bu, onun qəsa tərcümeyi-halı.

Amma o, bədii yaradıcılıqla məşğul olur. Yazıçılar Birliyinin üzvü olan bu 78 yaşlı qocaman ziyalı yazmaqdan yorulmur. Neçə kitabı çıxıb, bu kitablarda (”Dözüm”, ”Oğluma məktublar”, ”Mənim dünyam”, ”Günaha atılan daş”) onun əlli illik yaradıcılığı öz əksini tapır. Şeirləri, poemaları, nəsr əsərləri, pyesləri və publisist yazıları. Əlbəttə, bu yazılar həyatın ağrı-acılarını görmüş, sevincini də dadmış, öz halal zəhməti, müəllim ömrü ilə neçə nəslin rəğbətini qazanmış bir insanın könül duyğularını, həyata, dünyaya, insanlara münasibətini əks etdirir. Odur ki, Murad müəllimin şair ömrü ilə də sizi tanış etmək istərdim.

İlk şeirini 27 yaşında yazıb. Deyir ki, uşaqlıqdan şeirə, sənətə böyük marağı olub, ən çox sevdiyi şair Səməd Vurğun idi. Onun şeirlərinin çoxunu əzbər bilirdi. Məktəbli ikən şeir yazırdı, amma heç kimə göstərmirdi. Nəhayət, ”Yaz səhəri” şeirini çap etdirir və bundan sonra rayon qəzetləri redaksiyalarına ayağı açılır.

**Yağış yağır xırda-xırda,**
**Sanki bu gün köçüb gəlib**
**çiçəklərin dünyasına**
**ulduzlar da.**
**Onlar**
**gecə göydə**
**Səhər burda alışırlar.**
**Çiçəklərin gözlərinə**
**Nur verməyə çalışırlar.**

O, təbiət vurğunudur. Azərbaycanın rayonlarıfnı, kəndlərini gəzib, dağlarını, dərələrini dolaşıb, harda yaşıllıq görübsə, ürəyi atdanıb. Deyir ki, yaşıl rəngi çox sevirəm. Saatlarla Göygölün tamaşasına durub.

**Dərələri yaşıllığa bürünüb**
**Qayaları sanki mərmər hörülüb,**
**Hüsnü şəfəq ikimi əlvan görünür,**
**Yollarına dürr ələnib Göygölün,**
**Saçlarına nur çilənib Göygölün.**

Təbiətə həsr etdiyi şeirlərdə bir rəssam kimi hər fəslin, hər ağacın, hər dağın rəsmini çəkir. Sözdən tablolar yaratmağa can atır.

**Saz kimi kökləyib meşəni külək**
**Çalır həzin-həzin payız havası.**
**Dünyanın sirrindən agah ol, könül**
**Buludlar ağlasa, yerə buz düşər.**
**Qışda ağ yapıncı geyər dərə, dağ,**
**Yazda göy çəmənə ağ ulduz düşər.**

Şeir və poemalarında müəllim obrazlarına sıx-sıx rast gəlirik. Müəllimlik onun fikrincə, ən şərəfli sənətdir. Təsadüfi deyil ki, Murad müəllim bir çox pyeslərini müəllim həyatına həsr edib.

Murad Heydər oğlunun şeirlərində həzin duyğular dil açır. Şeirlərində çalışır ki, bu həzinliyi poeziya dililə verə bilsin. Anasına çoxlu şeirlər həsr edib. Hər şeirində anna sevgisini təzə bədii təsvir vasitələri ilə ifadə etməyə çalışıb.

**Anamdır dünyada uludan ulu,**
**Ondan yadigardır gözümün nuru.**
**Onsuz bu ələmə dözə bilmərəm**



**Gözümdə Günəşə dönsə də aləm.**
**Qəlbimdə bir sükut yuva salacaq,**
**Ah, süd məhəbbətim yetim qalacaq,**
**Anam yaman qocalıb**

Murad Heydər oğlu xalq şeirinin qanadlarında gəlib ədəbiyyata. Şeirlərinin əksəriyyəti heca vəznindədir- qoşma, gəraylı, bayatı Hecanın müxtəlif ölçüləri. Çalışıb ki, bu ”qədim havalar”-da təzə söz desin. Şeirlərində Aşıq Ələsgər poeziyasının ruhu duyulur.

**Söküldü qızıl dan, güldü yasəmən,**
**Dünyamı nur ilə dolalı gördüm.**
**Jalədən don geydi firuzə çəmən,**
**Keçiddə bir ürkək maralı gördüm.**

**Saçları pəjmürdə, üzündə kədər,**
**Dindirdim dinmədi, susdu bir qədər.**
**Dedim könlün alım, vaxt getdi hədər**
**Köksümü gileydən yaralı gördüm.**

**On dördcə gecəlik Ay tək bədirli,**
**Dinəndə danışır o dürlü-dürlü,**
**Bir dünya yaşadır sehirli, sirli,**
**Püstə dodağını saralı gördüm.**

Yetmiş səkkiz yaşlı şairimiz həyatın hər üzünü görüb. Azərbaycanda baş verən hər bir hadisə onun şeirlərində öz əks-sədasını tapır. O, sovet dönəmində yaşayıb, həyatda rast gəldiyi nöqsanları, neqativ hadisələri pisləyib, müstəqilliyə qədəm qoyan məmləkətimizin sevincləri ilə yaşayıb. Vətənimizin iqtisadiyyatının, mədəniyyətinin, beynəlxalq aləmdə nüfuz qazanmasının şahididir. Şeir və poemalarında məkrli düşmənlərimizin mənfur obrazlarını yaradıb. İyirmi Yanvarda-şəhidlərimizin al qanı töküləndə o da Vətən övladları kimi dərin hüzn keçirib, dərdini yanıqlı misralara çevirib:

**İyirmisi yanvar-o qış axşvmı,**
**Bakını bir səmum yeli dolaşdı.**
**Körpə qərənfillər, tər yasəmənlər**
**Yollara sərildi, qana bulaşdı.**
**İyirmisi yanvar-doxsanıncı il,**
**Gəncləri məzara qoşa saldılar.**
**Sinəm yaralıdır, sinəm dağlıdır,**
**Hər bahar çağlayan, hər bahar daşan,**
**Sevincin, gülüşün yolu bağlıdır.**

Xalqdan, folklordan gələn ifadələr, el məsəlləri şeirlərində dönə-dönə işlənir. Dilində bəzi qüsurlar olmamış deyil, nə etmək, sözünün safına hərdən nahamvar daşlar, kəsəklər də ilişir. Bunları qocaman şairimizə, ömrünü Bakıdan, qaynar ədəöi mühitdən uzaqlarda yaşayan bir el şairinə bağışlamaq olar.

Xeyli poemaları var ”Arzular gül açanda”, ”Telefon zəngi”, ”Mingəçevir”, ”Salaspils” və s. ”!Mingəçevir” poemasında bu şəhərin qədim tarixindən, keçdiyi inkişaf yollarından, orada yaşayan gözəl insanlardan hərarətlə söz açır.

Xeyli satirik şeirləri də var. Xəyanəti, rəzaləti, insana yad olan bütün mənfi halları tənqid atəşinə tutur. Bir sözdə, qocaman şairimizin əsas meyarı HƏQİQƏTDİR!.

**- Sus dedilər,**
**Soruşdum:**
**-Niyə susmalıyam mən?**
**Atımmı bir daş kimi**
**Ürəyimdən çıxarıb**
**Həqiqətin özünü?**

**Murad müəllim, qoy bu HƏQİQƏT həmişə sizə yol yoldaşı olsue. Yazın, yaradın!**